Ədalət 2019.- 21 may.- S.4.

# QOBUSTAN: PREZİDENTİN XÜSUSİ YADİGARI...

(əvvəli ötən sayımızda)

**Əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində rayonda əhəmiyyətli işlər görülməkdədir. Hazırda Ərəbqədim, Cəmcəmli, Göydərə kəndlərində içməli su şəbəkəsinin qurulmasına başlanmış, yaxın vaxtlarda Xilmilli, Cəyirli, Çalov və Sündü kəndlərində içməli su şəbəkəsinin yaradılması üçün müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur.**

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən 2018-ci ildə Çuxanlı və Sündü kəndlərində qazılmış artezian quyuları yaxın vaxtlarda istifadəyə veriləcəkdir. 2019-cu ilin birinci rübündə Qobustan rayonunda içməli suyun dəyəri 138 faiz toplanmışdır. Əhalinin təbii qazla təminatı rayonda yüksək səviyyədədir. Rayonun yaşayış mövcud olan 29 məntəqəsindən 23-nə təbii qaz verilir. Yerdə qalan 6 kənddə isə ümumilikdə 217 abonent olmaqla, 1600 nəfər əhali yaşayır. Növbəti illərdə həmin kəndlərin də qazlaşmasına nail olunacaq. 2019-cu ilin birinci rübündə əhali üzrə istehlak edilmiş qazın dəyəri 93,5 faiz ödənilmişdir. İl boyu əhaliyə normal təzyiqli fasiləsiz qazın verilməsi üçün bundan sonra da zəruri tədbirlər görülməlidir.

Onu da qeyd edək ki, cənab Prezidentimizin tapşırığı əsasında qazın güzəştli limitinin 500 kub.m artırılması hər bir sakini sevindirir və bu, bir daha cənab Prezidentin vətəndaşlara göstərdiyi diqqət və qayğının nəticəsidir.

Rayonda 2019-cu ilin birinci rübü ərzində yeni açılmış iş yerlərinin sayı 869 olmuşdur. Yeni yaranmış müəssisə və təşkilatlarda 4 nəfər, mövcud müəssisə və təşkilatlarda 5, fiziki şəxslərdə 60 nəfər və digər tədbirlərdə 800 nəfər işə qəbul olunmuşdur. Məşğul əhalinin sayı 22458 nəfər olmuşdur. Onu da qeyd edək ki, hazırda "Azərxalça" ASC-nin Qobustan rayon filialında 110 nəfər qadının işləməsi üçün vakant iş yeri vardır. Bu məsələ ərazi nümayəndəlikləri tərəfindən diqqətdə saxlanılmalıdır.

Birinci rübdə işçilərin orta aylıq nominal əmək haqqı 342,8 manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 13,5 faiz çoxdur.

Rayonda quruculuq-abadlıq işləri uğurla davam etdirilir. Rayonda yeni Şahmat məktəbi yaxın günlərdə istifadəyə veriləcəkdir. 10 may tarixində 100 yerlik uşaq bağçası istifadəyə verildi. Şıxzahırlı kəndində 96 şagird yerlik modul tipli məktəbdə quraşdırma işləri başa çatdırılmış, son tamamlama işləri aparılır. Yaxın günlərdə şəhərdə yeni 100 yerlik uşaq bağçası fəaliyyətə başlayacaqdır. İstər ümumtəhsil məktəblərində, istərsə də məktəbəqədər təhsil müəssisələrində, tədris, təlim-tərbiyə, nizam-intizam daim nəzarətdə saxlanılmalıdır.






Sutkada istehsal gücü 5 ton olan Dənli Bitki Toxumlarının Emalı zavodunda işlər sürətlə aparılır. Güman edirik ki, növbəti yarımildə zavod istifadəyə veriləcəkdir.

2019-cu ilin birinci rübündə Qobustan şəhərində və kəndlərdə 7000-dən artıq müxtəlif növ ağac və qızılgül kolu əkilmişdir.

Qobustan rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonda istifadə olunan kənd təsərrüfatına yararlı torpaq sahələri onun ümumi ərazisinin 67,4 faizini təşkil edir. Kənd təsərrüfatına yararlı torpaq sahəsinin 37,7 faizi əkinə yararlı torpaq sahələridir. 2019-cu ilin məhsulu üçün rayonun əkinə yararlı 35815 ha torpaq sahəsinin 31183 hektarında taxıl, o cümlədən 22258 ha sahədə buğda, 8925 ha sahədə arpa əkilmişdir ki, bu da əvvəlki dövrlə müqayisədə 247 hektar və ya 3,4 faiz çoxdur. 4632 ha sahə isə yazlıqlar və növbəti əkinlər üçün saxlanmışdır.

Havaların əlverişli keçməsi nəticəsində bu il hektardan 27-28 sentner məhsuldarlıq gözlənilir. Lakin alaq otlarına, zərərvericilərə qarşı mübarizə ciddi şəkildə davam etdirilməli, bu strateji məhsulun tam şəkildə və itkisiz yığılması üçün bütün texnikalar biçinə hazır vəziyyətə gətirilməli, yanğından mühafizə tədbirləri yüksək səviyyəyə çatdırılmalıdır.

Bununla bağlı İcra hakimiyyətində müvafiq qərargah yaradılmalı, yerlərdə könüllü dəstələr formalaşdırılmalıdır. 2019-cu ilin 01 aprel vəziyyətinə rayonda 823,5 ha sahədə yazlıq bitkilər əkilmişdir. Yazlıq əkinlərin 51,2 faizi və ya 422 hektarı dənlilər, 12,3 faizi və ya 101 hektarı kartof, 4,0 faizi və ya 32,5 hektarı tərəvəz, 31,9 faizi və ya 263 hektarı noxud, 0,6 faizi və ya 5 hektarı yonca bitkiləri olmuşdur.

Ümumilikdə 2018-ci ilin 01 aprel vəziyyətinə nisbətən yazlıq əkin sahələri 33,8 faiz çox olmuşdur. Yazlıq əkinin 2018-ci ilin 01 aprel vəziyyətinə nisbətən artması əsasən yazlıq arpa bitkisinin hesabına olmuşdur. Havaların yazın əvvəlində daha soyuq keçməsi, yazlıq bitkilərdən olan kartof və tərəvəz əkinini gecikdirmişdir.

Buna baxmayaraq təsərrüfatlar hava şəraitindən maksimum istifadə edərək yaxın müddətə yazlıq əkini başa vurmaq əzmindədirlər.

**Rayonda kənd təsərrüfatının inkişaf etmiş sahələrindən biri də heyvandarlıqdır.**

(ardı növbəti sayımızda)

**Məzahir ƏHMƏDZADƏ**

